# İlahidi, ülvidi, ucalıqdı...

*Qadın-Günəş, cocuq-ay... nurunu Günəşdən alır ,*
*Qadınsız ölkə çabuq məhv olur, zavallı qalır.*

**HÜSEYN CAVİD**

***Teymur BÜNYADOV,***
***akademik***

***❒ Qadın ilahi, ulu varlıqdı. Alilik, gözəllik, ucalıq, ülvilik timsalıdı. Analar anası, dünyalar dünyasıdı. Qoynunda bəsləyən, dünyaya gətirən, dünyalandırandı. Qadınsız cahan məhvərindən dönə bilər, həyat sönə bilər, bəşər ölə bilər...Yeddi yaşım olar-olmaz gəlin anam Fatma vaxtsız dünyasını dəyişdi. Dünyama zülmət çökdü, qəm ələndi. Boyuma həmişəlik anasızlıq, yetimlik libası biçildi. Müdam qəmli, gözüm nəmli. Boynu buruq, qəlbi sınıq. Səksən yaşım arxada qalıb, doxsana çata-çatdayam. Allahım başımın üstə, Fatmam ürəyimin başında, gözlərimin qorasında...***

Hər dəfə yolum Qazaxa düşəndə ilk olaraq Şıxlıya gedir, anamın qəbrini ziyarət edirəm. Qarşısında baş əyir, diz çökürəm. Pərvanələr tək başına dönüb-dolanıram. "Ana, ana qurban sana, bir laylamı çalsana" – deyə zümzümələyirəm. Təsəlli tapır, durulaşır, saflaşıram. Dünyaya yenidən gələn kimi oluram. Lakin hər dəfə də bir nisgilim ürəyimə od salır, ocaq çatırdı. Məni məndən alır, yaman günə qoyurdu. "Neyləyim, necə eləyim?" intizarı məni didir, parçalayırdı...

Fatmamın səksən bir il əvvəl düzəldilən sadə başdaşı rüzgarın sərt üzündən parçalanıb, qırıq-qırıq olmuşdu. Adı, soyadı, doğum, ölüm tarixi oxunmaz hala düşmüşdü. Məzarıstanda uyuyan qohum-əqrabaların, dost-tanışların sadə baş daşlarında tarix var, hikmətli sözlər, ibrətamiz kəlamlar var. Bir sinə daşından bu bayatını oxuyuram:



***Eləmi bir də gəlməz,***
***Gəlmişdi bir də gəlməz.***
***Anam kimi bir ana,***
***Dünyaya bir də gəlməz.***

Yaxşı bilirəm ki, İslam dininə görə qəbir itməli, torpaqlaşmalıdı. Qalmışdım qaşla göz arasında, alışır yanırdım köz arasında. Bir yandan da məzarıstana gələnlər, anamın küskün məzarını görür, ünvanıma qınaq yağdırırdılar. Yetim-yesirlər anası Fatmanın qəbrini alim görmürmü deyir, ünvanıma nələr söyləmirdilər?!

Elin töhməti, möhnəti yaman olur. Bu qınağa, bu sitəmə di gəl, döz, elin arasında gəz. Fikrim qətiləşdi. Başqa məzar daşlarına uyar, oxşar, heç kəsdən seçilməyən sadə bir başdaşı düzəltdirdim. Anamın ruhu şad oldu, – deyə təskinlik tapdım.

Ulularımız ana haqqı, Tanrı haqqı deyiblər. Axı Ana Vətəndi, Vətən də Ana. Əzizlərim, gəlin hamılıqla ana ülviyyətini uca tutaq. Doğmalardan doğma bilək, müqəddəs sayaq. Həyatımızın mənası bilək, yolunda qurban gedək. Hec bilmirəm bu məlum həqiqəti niyə təkrarladım, yada saldım. Amma düz elədim. Təkrar biliyin anasıdır.

Orta məktəbdə oxuyurduq. Bizim üçün Səməd Vurğun qeyri-adi insan, əlçatmaz, ünyetməzdi. Nə tayı, nə bərabəri, nə bənzəri vardı. Şairin kamal dünyasını təkrar-təkrar oxuyurduq. Hikmətində qanadlanır, pərvazlanır, xəyal dünyasında dolaşırdıq. Özümüzü dünyanın ən xoşbəxti sayırdıq...

Onun bu misraları anamı uşaqkən itirdiyimdən mənim ruhumu da oxşayırdı:

***Anamın dizinə qoyub başımı,***
***Xəyallar içində yuxuya daldım...***

Nə yazıq ki, onu da, məni də bu xoş duyğu, analıq mehri çox erkən tərk etmişdi.

Bir gün məktəbdə eşitdik ki, Vurğun doğma kəndi Yuxarı Salahlıdadı. Onu görmək arzusu ilə dan sökülər-sökülməz dostlarımla yola düzəldik – qaça-qaça, uça-uça. Şıxlı kəndi ilə Yuxarı Salahlının arası təxminən 15-18 kilometr olar. Kənddə yolun qırağında xeyli adam vardı. Vurğunu soruşduq: "Ay uşaqlar, gecikmisiz, yenicə Qazaxa getdi", – dedilər. Di gəl, pərişan olma. Bu əsnada təsəlli üçün şairin anası Məhbub xanımın məzarı olan yeri soruşduq, ziyarət etmək istədik. Nə yol göstərən, nə soraq verən oldu. "Ay uşaqlar, çox uzaqdadı", – dedilər. Bu da bizə bir dərd oldu. Nə isə, kor-peşman qayıtdıq kəndə...

İllərcə ürəyimdə qövr eyləyən bir niskilim vardı. Hər dəfə Qazaxa gedəndə anamın qəbrini ziyarət edib Salahlıdan keçəndə Məhbub xanımın məzarına baş çəkmək, dünyaya Vurğunu bəxş edən ananı ziyarət etmək istəyirdim, hər dəfə də bu niyyətim nəsə alınmırdı. Neyləyim, necə eləyim, intizarında qalırdım.

Bu il avqustun 7-də Qazaxda istidən nəfəs almaq olmurdu. Elə bil, hər yan alışır, yanırdı. Lakin necə olur-olsun, getməli, ziyarət etməli idim. Axşamüstü Günəş dağın arxasında yatağına çəkilərçəkilməz maşınımız Yuxarı Salahlıdakı köhnə Sudağılan məzarıstanına yol aldı. Kəndə çatmamış maşınımız sağ səmtə – Kür istiqamətinə buruldu. Kürün yaşıl vadisində qeyri-adi bir mənzərə ilə qarşılaşdıq.

Dünyanın lal sükutuna qərq olan, əsrlərcə ömür sürən və bu geniş ərazini bürüyən məzarıstan canlı tarixdi. Daş üzərinə həkk olunmuş tarix. Bu abidələr aləmi, hər biri təkrarsız sənət əsəridi. Ruhlar dünyasıdı, gör-götürdü, ibrətamizlikdi.

Salahlı təpələrinin ətəyindən başlayan bu qədim məzarlıq vadiyə doğru uzanır. Bu təkrarsız, bənzərsiz sənət əsərlərinə baxdıqca baxmaq istəyir, ayrıla bilmirsən. Düşüncələr aləminə dalır, xəyala qərq olursan. Ürəyimdə Vurğunun bu misralarını pıçıldayıram:

***Yolum düşdü Salahlıya,***
***o qəbrə diz çöküm bir də,***
***Anam Məhbubu yad ilə,***
***öpüm solğun yanağından.***
***Aman tale! Nə möhnətmiş***
***onun dərdi, mənim dərdim...***
***Bahar fəslində ayrıldı***
***qızılgül öz budağından.***

Qarşıdakı düzənlikdə geniş ərazini əhatə edən müxtəlif ölçülü, biçimli başdaşları, əsasən, qırmızı tufdan hazırlanıb. Bir qədər aralıdan məzarıstana nəzər saldıqda, elə bil seyrəldilmiş, başı kəsilmiş, qolu-budağı budanmış meşəni xatırladır. Hamıdan irəlidə gedən bələdçimiz, görkəmli tədqiqatçı, buraya gəlişimizin səbəbkarı İsmayıl Umudlu, təxminən, üç metr hündürlüyündə olan bir məzar daşının yanında ayaq saxladı. Teymur müəllim, çatdıq, – dedi. Başladı üstünü mamır basmış məzar daşının üzərindəki yazını aramla oxumağa.

"Bu qəbir bağışlanmış mərhum Mehdixan ağa Yusif ağa oğlu Vəkilovundur. 1886-cı il. Allah onu bağışlasın". El şairi Mehdixan ağa Kühənsal təxəllüsü ilə lirik şeirlər yazarmış:

***Bir zaman oynardım,***
***göydə, havada.***
***Madər öldü, yetim qaldım***
***yuvada.***



Mehdixan ağanın zövcəsi Ayişə xanım Aliskəndər qızından Məhbub xanım dünyaya gəlib. Məhbub xanım əmisi oğlu Yusif ağa Hacıməmməd ağa oğlu ilə ailə qurub. Bu evlilikdən Mehdixan müəllim və Vurğun dünyaya gəlib. Məhbub xanım namaz qılan, oruc tutan, ismətli bir gəlinmiş. Deyirlər ki, Quranı-Kərimi avazla oxuyarmış. Gəlin Məhbub ana 1912-ci ildə 28 yaşında dünyadan köçmüş, 6 yaşlı Vurğunu ağlar qoymuşdur. Nə yazıq ki, Məhbub xanım yetərincə körpəsini bağrına basıb, boynunu oxşamadı, laylasını çalmadı:

***Layla dedim, yatasan,***
***Qızılgülə batasan.***
***Qızılgülün içində,***
***Şirin yuxu yatasan...***

bayatısı gözündə qaldı.

İsmayıl müəllim pərişan halda ata məzarının sol səmtində üstünü ot basmış, nişangahı itmiş yeri göstərdi. Yaxın gəlin, Teymur müəllim, buradır, – dedi. Məhbub xanımın, az qala, yerlə bir olmuş, küskün məzarı...

Gözlərimə inanmadım. Havanın bu isti vaxtında üşüdüm, titrədim. Elə bil, başımın üstündə ildırım çaxdı, gürşad oynadı. Analaşan, torpaqla torpaqlaşan ananın məzarına baş əydim. “Dünya, dünya, yalan dünya, yaman dünya. Məhbub xanımı vaxtsız aparan, Vurğunu anasız qoyan dünya” – çağırdım.

Analar, analar! Günəş tək parlayan, işıq saçan, nur paylayan analar. Ay tək aylanan, ucaldıqca ucalan, aybəniz analar. Səbri ümman olan, qeyrət-ismət, hünər analar. İnsanlığa şərəf, cahana zinət analar. Dahilər, dühalar anası analar, əfsanələşən, nağıllaşan analar. Tariximizdə əbədiyaşar Tomrislər, Möminə xatunlar, Sara xatunlar, Nigarlar, Tutibikələr, Həcərlər, Məhbublar...

Dostum xalq şairi Qabilin təbirincə desək, "Bu torpaqdı, bu xalqdı, bu millətdi Səməd Vurğun". Dahilik, dühalıq zirvəsində qərar tutan Səməd Vurğunu dünyaya gətirən, dünyalandıran Məhbub ana. El şairi Kühənsalın əziz qızı, analar anasıdı Məhbub xanım.

Artıq axşamdır. Məzarıstandan ayrılanda Kür üstündən əsən sərin meh bizə laylay deyir, sığallayır. Günəş dağın arxasında yuxuya qalmış, ay aylanaraq üstümüzə şəfəq saçır, nur ələyir. Nigaran, halı pərişan bir halda oradan ayrılmalı oluruq.

Düşünürəm, qəlbimdə bir əminlik, yəqinlik şamı yanır. Çox keçməz, Vurğun-sevərlərdən kimsə, aidiyyəti qurumlar, xüsusən, Qazaxın yeni icra başçısı, bu kimi işlərə həssaslıq göstərən, təyin olunduğu gündən qurub-yaratmaq həvəsilə işə başlamış Rəcəb Babaşovun təşəbbüsü ilə Məhbub ananın məzarı qaydaya salınar. Buraya yol çəkilər, üstündə anaya layiq nişangah, məqbərə ucaldılar. Bu yer ziyarətgaha çevrilər. Gələnlər, görənlər ilahi ana məhəbbətinin hikmətində duyğulanar, analarını ürəklərində gəzdirərlər.